# Musiqi üzrə test

## Təlimat

İmtahan testinin elektron bukleti qarşınızdadır.

Test iki hissədən ibarətdir: I Dinləmə hissəsi; II Dinlənilən materialdan kənar təqdim olunmuş qapalı və açıq tapşırıqlar.

Dinləmə hissəsi üçün müəyyən vaxt ayrılmışdır. Testin elektron bukletində hər tapşırığın müvafiq təlimatında tapşırığa əməl etmək üçün konkret vaxt göstərilmişdir.

Testin II hissəsinin tapşırıqlarında qalan vaxtı istədiyiniz kimi bölüşdürün.

Testin maksimal xalı – 70-dır.

Testə əməl etmək üçün 4 saat vaxt verilir.

Sizə uğurlar arzulayırıq!

I Dinləmə hissəsi

Dinləmə hissəsi on tapşırıqdan ibarətdir.

Tapşırıqlar № 1-6.

<u>Təlimat:</u> İlk altı tapşırığın hər biri bir musiqi fraqmenti və iki sualdan ibarətdir. Hər suala dörd ehtimal olunan cavab verilir. Onlardan yalnız biri düzgündür. Cavabı seçin və cavablar vərəqində müvafiq xananı X işarəsi ilə qeyd edin. Düzgün cavab bir balla, ona görə də, hər bir tapşırıq iki balla qiymətləndirilir. Tapşırığa aid olan musiqi fraqmenti iki dəfə səsləndirilir. Birinci və ikinci dinləmə arasında 20 saniyə fasilə verilir. Fraqment dinlənilənədək tapşırığın suallarını oxumaq üçün sizə 10 saniyə vaxt verilir.

*Tapşırıqlar növbəti səhifələrdə verilmişdir.*

(2) **Tapşırıq № 1.**

**Birinci musiqi fraqmentini dinləmədən əvvəl tapşırıqla tanış olun:**

**1.1 Gürcüstanın hansı guşəsinin mahnısıdır?**

ა) Quriyanın;

ბ) Samqrelonun;

გ) Pşavinin;

დ) Kaxetiyanın.

**1.2 Mahnı hansı janra aiddir?**

ა) Rəqs;

ბ) Toy;

გ) Əmək;

დ) Təqvim.

(2) **Tapşırıq № 2.**

**İkinci musiqi fraqmentini dinləmədən əvvəl tapşırıqla tanış olun:**

**2.1 Hansı kinofilmin soundtrack fraqmenti səslənir?**

ა) “Ninon”un („ნინო“);

ბ) “Gülümsəyən oğlanlar”ın („ღიმილის ბიჭები“);

გ) “Sabudaralı gənc”in („საბუდარელი ჭაბუკი“);

დ) “Badam çiçəkləyəndə”nin („როცა აყვავდა ნუში“).

**2.2 Musiqinin müəllifi kimdir?**

ა) Bidzina Kvarnadze;

ბ) Revaz Lağidze;

გ) Qia Ğançeli;

დ) Nodar Qabunyia.

(2) **Tapşırıq № 3.**

**Üçüncü musiqi fraqmentini dinləmədən əvvəl tapşırıqla tanış olun:**

**3.1 Musiqinin bəstəkarı kimdir?**

ა) Aram Xaçaturiani;

ბ) İqor Stravinski;

გ) Otar Taktakişvili;

დ) Sergey Prokofyev.

**3.2 Fraqment hansı baletdən səslənir?**

ა) "Romeo və Cülyetta"dan;

ბ) "Spartak"dan;

გ) "Qorda"dan;

დ) "Simurq"dan.

(2) **Tapşırıq № 4.**

**Dördüncü musiqi fraqmentini dinləmədən əvvəl tapşırıqla tanış olun:**

**4.1 Fraqmenti hansı opera səsi ifa edir?**

ა) Soprano;

ბ) Kontralto;

გ) Koloratur Soprano;

დ) Messo-Soprano.

**4.2 Musiqinin müəllifi kimdir?**

ა) Rixard Vaqner;

ბ) Georq Fridrix Hendel;

გ) Kristof Qlyuk;

დ) Volfqanq Amadey Motsart.

(2) **Tapşırıq № 5.**

**Beşinci musiqi fraqmentini dinləmədən əvvəl tapşırıqla tanış olun:**

**5.1 Fraqmenti hansı heyət ifa edir?**

ა) Simli-kamanlı alətlər orkestri;

ბ) Kamera-instrumental ansamblı;

გ) Simfonik orkestr;

დ) Nəfəs alətləri orkestri.

**5.2 Əsər hansı dövrə/cərəyana aiddir?**

ა) Klsassisizmə;

ბ) İmpressionizmə;

გ) Barokkoya;

დ) Romantizmə.

(2) **Tapşırıq № 6.**

**Altıncı musiqi fraqmentini dinləmədən əvvəl tapşırıqla tanış olun:**

**6.1 Mahnını hansı müğənni ifa edir?**

ა) Ella Fitscerald;

ბ) Billi Ayliş;

გ) Cenis Coplin;

დ) Edit Piaf.

**6.2 Mahnı hansı janra aiddir?**

ა) Roka;

ბ) Şansona;

გ) Blüzə;

დ) Folka.

(1) Tapşırıq № 7.

<u>Təlimat</u>. Musiqi səslər ardıcıllığını dinləyin. Not yazısında verilmiş dörd lad variantından dinlədiyinizə uyğun olanı tapın və cavablar vərəqində müvafiq xananı X işarəsi ilə qeyd edin. Səslər ardıcıllığını iki dəfə dinləyin. Not yazısını nəzərdən keçirmək üçün dinləməyədək sizə 5 saniyə vaxt verilir:



(1) Tapşırıq № 8.

<u>Təlimat</u>. Musiqi frazasını dinləyin; not yazısında verilmiş dörd fərqli variantdan dinlədiyiniz ritmik fiqurasiyanın müvafiq variantını seçin və cavablar vərəqində müvafiq xananı X işarəsi ilə qeyd edin. Musiqi frazası iki dəfə səsləndiriləcək. Not yazısını nəzərdən keçirmək üçün dinləməyədək sizə 5 saniyə vaxt verilir:



(5) Tapşırıq № 9.

*Melodiyalı imla.*

Təlimat. Melodiyanı dinləyin və not sistemində yazın. Melodiya birsəsli, səkkiztaktlı və birtonallıdır. Melodiyanı dinləmək və yazmaq üçün sizə 15 dəqiqə vaxt verilir. Melodiyanın audioyazısı beş dəfə səsləndiriləcək. Dinləmələr arasında 2 dəqiqə fasilə var.

İmla *Fa Major (F dur)* tonallığında verilmişdir.

*Yazdığınız melodiyanı cavablar vərəqində verilmiş not sisteminə qələmlə köçürün.*

(13) Tapşırıq № 10.

*Musiqi əsərinin təhlili.*

Təlimat. Musiqili əsərin fraqmentini audio ve not yazıları əsasında təhlil edin.

Fraqment üç dəfə səsləndiriləcək. Dinləmələr arasında 2 dəqiqə fasilə var. Yazını dinləməzdən əvvəl tapşırığın suallarını nəzərdən keçirmək üçün sizə 30 saniyə vaxt verilir.

*Suallara növbəti iki səhifədə baxın.*

(2) **1. Fraqmentini dinlədiyiniz əsər hansı janra aiddir? Fikrinizi əsaslandırın.**

(3) **2. Müəyyən edin:**

ა) Fraqmentin başlanğıc tonallığını;

ბ) 1-14-ci taktlarda verilmiş fraqmentin musiqi formasını;

გ) 10-14-ci taktlarda verilən kadans dövriyyəsinə daxil olan akkordların harmonik funksiyalarını;

(3) **3. Verilmiş fraqmenti bədii-emosional nöqteyi-nəzərdən xarakterizə edin; onun musiqi-bədii məzmununu yaratmaq üçün musiqi təsvirinin hansı üsullarının (hansı növ melodiya, ritm, temp, reqistr, tembr, harmoniya, lad-tonallıq, faktura və s.) xüsusilə vacib olduğunu təhlil və təsvir edin.**

(2) **4. Dinlənilmiş əsərin fraqmentinin musiqi xüsusiyyətlərinə əsaslanaraq onun aid olduğu bəstəkarı və dövrü müəyyənləşdirin.**

(3) **5. Bəstəkarın yaradıcılığını xarakterizə edin, musiqi sahəsinə hansı yeniliyi gətirdiyini qeyd edin. Dinlədiyiniz fraqmentin aid olduğu əsərin tarixi-mədəni kontekstini müzakirə edin. Dinlənilən əsərin aid olduğu janrın inkişaf tarixini qısaca qeyd edin.**

*Musiqi fraqmentinin not yazısına növbəti səhifələrdə baxın.*


Molto moderato (♩= 80)
2nd Piano
(Orchestra)
mf (Clar.)


10
1
Più mosso
poco rit.
2
p
a tempo


(Solo)
Moderato assai
20
ten.
Più mosso
3
mf tranquillo
ten.
ff
2nd Piano
3
f
4
(Solo)
Scherzando (commodo)
mp poco scherzando
legato
4


pochissimo rall.
A 30
a tempo
ten.
R.H.
p
ten.
ten.


f martellato
ff
pp
poco rall.


40
3
3
mf
Più mosso
5
(Solo)
8va
(L.H.)
poco rit.
5
(2nd Piano)
mf
poco rit.


3
3


8va
(L.H)
R.H.
poco rit.


tranquillo
50
p
p
(Solo)
f deciso
3
3
p scherzando



Poco agitato
R.H.
p poco cresc.
mf
3
cresc.


60
f
3
B


ff molto marcato
70


6
6
Tempo giusto
(2nd Piano)
ff
non troppo f
ff


7
8va
pp legato
cresc.
f
7
p


8
sff
ff
8
f
3
3
8va
90
sff
sff


9
8va
p
9
marc.
mf
3


8va
simile
8va
10
10



100
8va
8va
11
p
p cresc.
11


f
sfz
110
p cresc.


rall. e dim.
a tempo
sf
rall. e dim.
12
Tempo giusto
f
12
ff


120
mf


p
p
p
p
130
13
Meno
13
p


(2nd Piano)
p rit.
ff a tempo
sfz

II Hissə

Tapşırıqlar № 11-28.

Təlimat. Hər suala dörd ehtimal edilən cavab verilir. Onlardan yalnız biri düzgündür. Cavabı seçin və cavablar vərəqinin müvafiq xanasını X-lə işarələyin. Başqa heç bir işarədən istifadə etməyin (üfüqi və ya şaquli xətlər, dairə və s. ), çünki elektron proqram onları qəbul edə bilmir. Əgər cavablar vərəqində işarələdiyiniz cavabı düzəltmək istəyirsinizsə, X-lə qeyd etdiyiniz xananı bütövlüklə rəngləyin və sonra düzgün cavabın yeni variantını qeyd edin (X işarəsini yeni xanada qeyd edin). Düzəltdiyiniz cavabın yenidən seçilməsi qeyri-mümkündür. Hər düzgün tapşırığa 1 bal verilir.

(1) **Tapşırıq № 11.**

**Hansı xarakteristika İntibah dövrü üçün tipik olan messa janrına *<u>uyğun gəlmir</u>*?**

ა) Qadın və kişi səslərindən ibarət qarışıq xor a kapella;

ბ) Sərt üslublu polifoniya;

გ) Kişilərdən ibarət xorun səsləndirdiyi monodik mahnı;

დ) Kanonik dualara əsaslanan ilahilər.

(1) **Tapşırıq № 12.**

**Proqram musiqisi janrına hansı əsər aiddir?**

ა) Frans Şubertin "Gözəl dəyirmançı qız" vokal tsikli;

ბ) Feliks Mendelsonun “Yay gecəsi yuxusu” simfonik uvertürası;

გ) Georq Fridrix Hendelin "Samson" oratoriyası;

დ) Yozef Haydnın "Litavraların tremolosu ilə" simfoniyası.

(1) **Tapşırıq № 13.**

**Edvard Qriqin "Dağ kralının mağarasında" və Moris Ravelin "Bolero" orkestr pyesləri hansı ümumi musiqi xüsusiyyətlərinə malikdir?**

ა) Hər ikisi eyni musiqi tərzinə aiddir;

ბ) Hər iki əsər monoton dinamika və ritmik ostinato ilə xarakterizə olunur;

გ) Orkestr pyesləri proqramlı simfonizm nümunələridir;

დ) Pyeslərdə musiqi inkişafının prinsiplərindən biri də tembral variasiyadır.

(1) **Tapşırıq № 14.**

**Hansı xarakteristika Cüzeppe Verdinin "Aida" operasına *uyğun gəlmir*?**

ა) Operada fasiləsiz inkişaf prinsipi ilə qurulan səhnələrlə yanaşı, nömrəli struktur da saxlanılır;

ბ) Uvertürası operanın əsas ideyasını çatdırır və musiqi mövzuları vasitəsilə opera ilə əlaqələndirilir;

გ) Tamaşaya meyillənməsi və çoxsalı səhnələri ilə seçilən Qrand opera janrında olub, əsər obrazların fərdi xüsusiyyətlərini arxa plana keçirir;

დ) Vokal xətti operada aparıcı xətdir, lakin orkestr partiyası bədii obrazların inkişafında böyük rol oynayır.

(1) **Tapşırıq № 15.**

**Hansı yaradıcı novatorluq Hektor Berliozun adı ilə bağlı *<u>deyil</u>*?**

ა) Simfonik janra leytmotiv xarakteristikanın gətirilməsi;

ბ) Fransız süjetli proqram simfonizminin əsasının qoyulması;

გ) Dördhissəli simfonik tsiklin beş hissəyə qədər genişləndirilməsi;

დ) Simfonik orkestrin simli alət arfa ilə tamamlanması.

(1) **Tapşırıq № 16.**

**Hansı bəstəkar opera tetralogiyası yaratmışdır?**

ა) Cakomo Puççini;

ბ) Volfqanq Amadey Motsart;

გ) Rixard Vaqner;

დ) Olivye Messian.

(1) **Tapşırıq № 17.**

**Aşağıdakı musiqi terminlərindən hansı tempi ifadə *etmir*?**

ა) Presto;

ბ) Lento;

გ) Pesante;

დ) Moderato.

(1) **Tapşırıq № 18.**

**Bəstəkarlar opera janrının bariton və bas partiyalarında tez-tez "yanıltmaclardan" istifadə edirlər.**

**Bununla hansı emosional aspektə nail olmaq istəyirlər?**

ა) Epik dincliyə;

ბ) Dramatik dərinliyə;

გ) Səmimi lirizmə;

დ) Komik yüngüllüyə.

(1) **Tapşırıq № 19.**

**Nodar Qabunyanın "İqav" vokal-instrumental ansamblının əsasını hansı müəllifin ədəbi mətni təşkil edir?**

ა) Şota Rustavelinin;

ბ) Sulxan-Saba Orbelianinin;

გ) Davit Quramişvilinin;

დ) Akaki Tseretelinin.

(1) **Tapşırıq № 20.**

**Musiqidə Barokko dövrü hansı illəri əhatə edir?**

ა) 1750-1820;

ბ) 1450-1600;

გ) 1820-1900;

დ) 1600-1750.

(1) **Tapşırıq № 21.**

**Konçerto qrosso (concerto grosso) cjanrlı əsərdə solistlər ansamblı necə adlanır?**

ა) Concertino;

ბ) Tutti;

გ) Band;

დ) Ripieno.

(1) **Tapşırıq № 22.**

**Coakkino Rossininin "Sevilyalı bərbər" operası hansı müəllifin bədii əsəri əsasında yaradılmışdır?**

ა) Pyer Bomarşenin;

ბ) Yohann Volfqanq fon Götenin;

გ) Aleksandr Dümanın (övlad);

დ) Karlo Qotsinin.

(1) **Tapşırıq № 23.**

**Klassisizm dövrünün tsiklik formalarının – sonata, kvartet və simfoniyanın - ilk hissələri, əsasən, hansı musiqi formasında yazılırdı?**

ა) Üçhissəli;

ბ) Rondo;

გ) Variasiya;

დ) Sonata.

(1) **Tapşırıq № 24.**

**Frans Şubertin "Meşə çarı" balladasına hansı tərif *uyğun gəlmir*?**

ა) Fortepiano müşayiətində səsin təsviri elementlərindən istifadə olunur;

ბ) Vokal intonasiya bir neçə bədii obraza əsaslanır;

გ) Ballada bir musiqi mövzusunun dinamik inkişafı üzərində qurulmuşdur;

დ) Fortepianonun müşayiəti emosional-təsviri rol oynayır.

(1) **Tapşırıq № 25.**

**Hans fransız ı bəstəkar “Altılıq” kimi tanınan yaradıcı qrupa *__aid deyil__*?**

ა) Klod Debüssi;

ბ) Fransis Pulenk;

გ) Darius Miio;

დ) Artur Oneqqer.

(1) **Tapşırıq № 26.**

**Arnold Şönberqin musiqisi üçün hansı bəstəkarlıq metodu xarakterikdir?**

ა) Seriyalı musiqinin yazılma texnikası;

ბ) Caz improvizasiyasının elementləri;

გ) Elektron musiqinin prinsipləri;

დ) Barokko dövrünün üslubu.

(1) **Tapşırıq № 27.**

**Florestan və Evsebiyin bədii obrazları hansı romantik bəstəkarın yaradıcılığı ilə bağlıdır?**

ა) Frederik Şopenin;

ბ) Robert Şumanın;

გ) Ferens Listin;

დ) Hektor Berliozun.

(1) **Tapşırıq № 28.**

**Hansı gürcü simfonik əsərində vokaldan istifadə olunub?**

ა) Bidzina Kvernadzenin "Rəqs-fantaziya" simfonik pyesində;

ბ) Qia Kançelinin №3 simfoniyasında;

გ) Şalva Mşvelidzenin "Zviadauri" simfonik poemasında;

დ) Sulxan Nasidzenin "Pirosmani" simfoniyasında.

**Tapşırıqlar № 29 - 32.**

*Notdan qurma*

**Təlimat. *Si Bemol* notundan intervalı, akkordları və ladı qurun, cavablar vərəqində verilən not sistemində yazın.**

(1) 29. Təmiz kvarta;

(1) 30. Minor sekstakkord;

(1) 31. Kiçik major septakkord;

(1) 32. Melodik major.

Tapşırıqlar № 33 - 35.

*Uyğunluğun müəyyən edilməsi*

Təlimat. Tapşırıqda sadalananların iki sütunu verilmişdir. Onlar arasındakı uyğunluğu müəyyən edin. Sol sütunun hər bir göstəricisi (1, 2, 3) sağdakı sütununun *yalnız bir* göstəricisinə (ა, ბ, გ, დ, ე) uyğundur. Cavablar vərəqində verilmiş cədvəldə seçilmiş hər bir uyğunluğu X işarəsi ilə qeyd edin. Hər düzgün cavab 1 balla qiymətləndirilir.

(3) **Tapşırıq № 33.**

**Musiqi janrları və əsərləri arasındakı uyğunluğu müəyyən edin:**

1. Kantata
2. Simfoniya
3. Süita

ა) “Eqmont”

ბ) “Dido və Aeneas”

გ) “Suda Musiqi”

დ) “Karmina Burana”

ე) “Yeni aləmdən”

(3) **Tapşırıq № 34.**

**Gürcü operaları və onların bəstəkarları arasındakı uyğunluğu müəyyən edin:**

| | |
|---|---|
| 1. "Daisi" („დაისი") | ა) Zakaria Paliaşvili |
| 2. "Hiyləgər Darecan" („დარეჯან ცბიერი") | ბ) Otar Taktakişvili |
| 3. "Səkkizinci il idi…" („იყო მერვესა წელსა…") | გ) Bidzina Kvernadze |
| | დ) Meliton Balançivadze |
| | ე) Viktor Dolidze |

(3) **Tapşırıq № 35.**

**Opera səhnələri və operalar arasındakı uyğunluğu müəyyən edin:**

1. "Elysium səhnəsində"
2. "Lilas Pastya taverna səhnəsində"
3. "Qurdlar vadisi səhnəsində"

ა) "Fiqaronun toyu"

ბ) "Karmen"

გ) "Loenqrin"

დ) "Sərbəst Atıcı"

ე) "Orfey və Evridika"

Tapşırıqlar № 36–40.

*“Düzgündür - səhvdir”*

Təlimat. Verilən müddəanın düzgün, yaxud səhv olduğunu müəyyən edin. Müddəanı düzgün hesab edirsinizsə, müvafiq xananı X işarəsi ilə qeyd edin; belə hallarda sizdən şərh tələb edilmir; Əgər müddəanı səhv hesab edirsinizsə, müvafiq xananı X işarəsi ilə qeyd edin və ayrılmış sahədə düzgün izahı yazın.

Müddəa səhvdirsə, verilmiş izaha düzgün termini/sözü uyğunlaşdırın və yaxud verilmiş termini/sözü düzgün izah edin. Nəzərə alın ki, verilmiş izahın təsdiq halı inkar halı ilə və əksinə dəyişdirildikdə cavab qəbul olunmayacaqdır. Hər tapşırıq 1 balla qiymətləndirilir.

(1) **Tapşırıq № 36.**

Kantilena danışıq nitqinə yaxın olan mahnı oxuma formasıdır.

(1) **Tapşırıq № 37.**

Musiqidə duyğunu ifadə edən terminlərdən biri "forşlaq"dır.

(1) **Tapşırıq № 38.**

Quriya xalq mahnısı “Batonebo” süfrə janrına aiddir.

(1) **Tapşırıq № 39.**

Fuqa homofonik quruluş formalarından biridir.

(1) **Tapşırıq № 40.**

Agitato musiqidə aqogikanı ifadə edən termindir.

Tapşırıqlar № 41 – 42.

*Xronologiyanın müəyyən edilməsi*

Təlimat. Verilənləri ən qədimdən ən yeniyə qədər xronoloji ardıcıllıqla sıralayın. Cavablar vərəqindəki cədvəldə xronoloji ardıcıllıq rəqəmlərlə 1-dən 4-də qədər qeyd edilmişdir. Cavablar vərəqində verilmiş cədvəldə seçilmiş rəqəm boyunca verilən xanada əlifbanın müvafiq hərfləri ilə (ა, ბ, გ, დ) düzgün cavabları yazın. Hər tapşırıq 1 balla qiymətləndirilir.

(1) **Tapşırıq № 41.**

**Musiqi cərəyanlarını xronoloji olaraq sıralayın:**

ა) Ekspressionizm;

ბ) Barokko;

გ) Romantizm;

დ) Klassisizm.

(1) **Tapşırıq № 42.**

**Gürcü opera müğənnilərinin siyahısını fəaliyyət dövrünə əsasən xronoloji olaraq sıralayın:**

ა) Nadejda Tsomaia;

ბ) Salome Cikia;

გ) Maia Tomadze;

დ) Medeya Amiranaşvili.